# Gənc nəsil müstəqillik tariximizi yaxşı öyrənməlidir




***Yeni Azərbaycan Partiyasının bu il martın 5-də keçirilmiş VII qurultayı Azərbaycan tarixində çox mühüm hadisədir. Qurultayın böyük əhəmiyyət kəsb etdiyini Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin tədbirdəki videoformatda çıxışı zamanı da gördük. Dövlət başçısı rəhbərlik etdiyi partiyanın ümummilli lider Heydər Əliyevin şəxsiyyəti ətrafında yarandığını, ölkəmizin inkişafı üçün böyük işlər gördüyünü qeyd etdi.***

Partiyanın yaranmasında milli maraqları hər şeydən üstün tutan "91-lər"in böyük rol oynadığını qeyd edən dövlət başçısı bildirdi ki, onların fəaliyyətini yüksək qiymətləndirir. Bu gün də onların bir çoxu partiyanın sıralarındadır. Bundan sonra da onlar Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasında fəaliyyət göstərəcəklər.

Bəli, cənab İlham Əliyevin qurultayda qeyd etdiyi kimi, 1993-cü ilin oktyabr ayında Heydər Əliyev xalqın mütləq əksəriyyətinin dəstəyini qazanaraq prezident seçilməsi ilə ölkəmizin böhrandan çıxma prosesi başlayıb. Dövlət başçısı bildirdi ki, 1991-ci ilin 18 oktyabrına qədər digər keçmiş müttəfiq respublikalar da öz müstəqilliyini elan etmişdi. Sovet İttifaqı, demək olar ki, dağılırdı. Parçalanma prosesləri gedirdi: "Nəyi gözləyirdilər 18 oktyabra qədər? Ondan əvvəl müstəqilliyi elan etmək olmazdımı? Əlbəttə, olardı. Ona görə bizim əsl müstəqillik tariximiz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çünki ona qədər müstəqillik sözdə var idi, amma faktiki olaraq yox idi. Azərbaycan müstəqil siyasət apara bilirdi? Yox! Öz hüdudlarını qoruya bilirdi? Yox! Beynəlxalq aləmdə öz sözünü deyə bilirdi? Yox! Bəs bu, nə müstəqillikdir?"

Prezident məhz buna görə narahatlıqla vurğuladı ki, bu tarixi gənc nəsil bilməli, öyrənməlidir. O dövrü yaşamayan gənc nəsil bilməlidir ki, nəyin bahasına biz müstəqilliyi qoruyub saxlaya bilmişik. Və buna görə kimə borcluyuq? Əgər Heydər Əliyev o vaxt hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan bəlkə də ancaq kiminsə əlinin altında bir oyuncaq dövlət kimi, ən yaxşı halda bir yarımmüstəmləkə kimi yaşaya bilərdi. Bunu bilmək və bundan sonra bu möhkəm təməl üzərində inkişaf etmək lazımdır.

1993–2003-cü illərdə qazanılmış nailiyyətlər məhz bu təməl üzərində qurulub. O illərdə müstəqil Azərbaycan dövlətçiliyinin əsasları qoyulub. 20 Yanvar faciəsinə siyasi qiymət verilib. Prezident haqlı olaraq soruşurdu: "Nə üçün Xalq Cəbhəsi-Müsavat cütlüyü 20 Yanvar faciəsinə siyasi qiymət verməmişdir? Onların bir il vaxtı var idi. Nə üçün? Çünki onların da əli Azərbaycan xalqının qanına batmışdır. Onlar da 20 Yanvar faciəsini ört-basdır etmək istəyirdilər. Yalnız Heydər Əliyev 20 Yanvar faciəsinə siyasi qiymət verdi. Konstitusiya yalnız Heydər Əliyevin dövründə qəbul edildi. Xalq Cəbhəsi-Müsavat cütlüyü tərəfindən qoyulan senzura məhz onun göstərişi ilə, onun tərəfindən ləğv edildi. Siyasi islahatlara start verildi, çoxpartiyalı sistem yarandı. Biz beynəlxalq təcriddən çıxdıq. Azərbaycan artıq hörmətli və hörmətə layiq olan ölkə kimi tanınmağa başlamışdır".

Məhz bundan sonra ölkəmizə böyük investisiyalar cəlb edilib. Ordu quruculuğuna start verilib. Kadrların yetişdirilməsi ilə bağlı önəmli addımlar atılıb. Həmin kadrlar bu gün də ölkəmizin müxtəlif sahələrində öz töhfələrini verirlər.

YAP sədri haqlı olaraq qeyd etdi ki, 2003-cü ilin prezident seçkilərində də xalq İlham Əliyevə səs verərkən məhz Heydər Əliyev siyasətinə dəstək verib. Çünki İlham Əliyev bəyan etmişdi ki, əgər xalq ona etimad göstərərsə, ulu öndərin siyasətinə sadiq qalacaq. Məhz bu siyasətin bəhrəsidir ki, Azərbaycan son 17 il ərzində, doğrudan da, tarixi uğurlara imza atıb.

Ancaq həyat davam edir, dövlət başçısının dediyi kimi, gələcək haqqında, işğaldan azad edilmiş torpaqların taleyi, Qarabağın bərpası haqqında düşünmək lazımdır. Ölkənin gələcəyini elə planlaşdırmalıyıq ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin, müstəqillik əbədi olsun, ölkəmizin qüdrəti güclənsin, təsir imkanlarımız artsın və daim Azərbaycan xalqı təhlükəsizlik şəraitində öz dədə-baba torpağında yaşasın.

***Nizami SÜLEYMANOV,***
***tarix elmləri doktoru,***
***professor***

Xalq qəzeti 2021.- 11 mart.- S.6.